# “İdman yarışı” viza müraciəti üçün tələb olunan sənədlərin siyahısı

- Səfərin məqsədi ilə bağlı qısa məlumat (ərizəçi tərəfindən yazılıb imzalanmalıdır);
- pasport;
- anket;
- 2 fotoşəkil (ağ fonda);
- pasportun əsas səhifəsinin, əvvəlki bütün vizaların və giriş/çıxış möhürləri olan bütün səhifələrinin surəti;
- qüvvədə olan şəxsiyyət vəsiqəsinin əsli və surəti (xarici vətəndaşlar üçün Azərbaycanda müvəqqəti yaşamaq icazəsi, vizanın bitmə müddətindən sonra 3 ay qüvvədə olmalıdır);
- viza və ölkəyə giriş qaydaları haqqında ümumi məlumatları özündə əks etdirən sənəd - iki nüsxə (Səfirliyin saytından yükləmək olar);
- İtaliyaya səyahət qaydaları və mümkün məhdudiyyətlərlə bağlı məlumat vərəqəsi- iki nüsxə (Səfirliyin saytından yükləmək olar);
- Dəvət edən İtaliya Federsiyasının CONI (İtaliya Milli Olimpiya Komitəsi) tərəfindən təsdiqlənmiş məktubu;
- Azərbaycandakı məsul İdman Federasiyası tərəfindən məktub (ingilis dilində deyilsə, tərcümə və təsdiq olunmalıdır). Məktubda səfər xərclərinin kim tərəfindən qarşılanacağı qeyd edilməlidir;
- Məktubu imzalayan şəxsin Federasiyada imza səlahiyyətinə malik olduğunu təsdiq edə biləcək sənəd;
- Məktubu imzalayan şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən məktub;
- Hotel rezervasiyası (hər bir səfər edən şəxsin adı qeyd olunmalıdır);
- Tibbi sığorta (Covid-19 ilə bağlı xərcləri ən azı 30.000 avro məbləği daxilində limitsiz əhatə etməlidir);
- Gediş və qayıdış biletinin rezervasiyası.

Viza müraciətləri üçün tibbi sığorta
Əgər ərizəçi azyaşlıdırsa, görüşdə hər iki valideyn iştirak etməlidir və anket hər ikisi tərəfindən imzalanmalıdır. Notarial tərcümə və təsdiqli doğum şəhadətnaməsi, valideynlərin şəxsiyyət vəsiqələrinin surətləri təqdim edilməlidir. Valideynlər adından İtaliyaya gedib-qayıtması üçün azyaşlını müşayiət edəcək şəxsin adına razılıq ərizəsində yarışın adı, gediş və qayıdış tarixləri qeyd edilməli və notarial qaydada tərcümə və təsdiq edilməlidir. Müşayiət edəcək şəxsin xarici pasportunun surəti əlavə edilməlidir.
İtaliya Milli Olimpiya Komitəsi tərəfindən təsdiq (nulla osta) olduğu halda ərizəçi viza rüsumundan azaddır. Əks halda 35 avro rüsum nəzərdə tutulur (Azərbaycan vətəndaşları üçün). Viza rüsumu yalnız nağd şəkildə və rüblük məzənnəyə müvafiq olaraq manatla qəbul olunur.

Şəxsiyyət vəsiqəsi və pasportdan başqa Azərbaycan dilində olan bütün sənədlər ingilis və ya italyan dilinə tərcümə və təsdiq olunmalıdır.

Arayışların etibarlılıq müddəti bir aydır.